## Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin xüsusi rütbəsi olan əməkdaşlarının və mülki işçilərinin aylıq vəzifə maaşlarının artırılması haqqında

## Azərbaycan Respublikasının Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin xüsusi rütbəsi olan əməkdaşlarının və mülki işçilərinin sosial müdafiəsini gücləndirmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikası dövlət büdcəsindən maliyyələşən gömrük orqanlarının xüsusi rütbəsi olan əməkdaşlarının aylıq vəzifə maaşı orta hesabla 2 dəfə artırılsın.

2. Azərbaycan Respublikası dövlət büdcəsindən maliyyələşən gömrük orqanlarının mülki işçilərinin aylıq vəzifə maaşı orta hesabla 1,7 dəfə artırılsın.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu sərəncamdan irəli gələn məsələləri həll etsin.

4. Bu sərəncam 2008-ci il fevralın 1-də qüvvəyə minir.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 31 yanvar 2008-ci il
№ 2642